# Gözlərə nur bəxş edən alim və fədakar ana

**Tarixən dövlətimizin, dövlətçiliyimizin inkişafının bütün mərhələlərində Azərbaycan qadınları kişilərlə bərabər iştirak edib və öz layiqli töhfələrini verib. Bu görkəmli simalardan biri də ictimai xadim, akademik Zərifə xanım Əliyevadır. Onun keçdiyi şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.**

Azərbaycanın səhiyyə sahəsində silinməz iz qoyan akademik Zərifə xanım Əliyeva milli müasir oftalmologiya elminin yaradıcılarından biridir. İllərlə fəaliyyət göstərdiyi sahə üzrə minlərlə xəstəni sağaldaraq göz xəstəliklərindən xilas edən, qəlblərə, gözlərə nur gətirən Zərifə xanımın elm sahəsində də çox böyük nailiyyətləri olub. Zərifə xanımın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri zəngin və çoxşaxəlidir. Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan Zərifə xanım Əliyeva təbabətdə öz dəstxətti olan novator alim idi.

Zərifə xanım Əliyeva cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə də dəyərli töhfələr verib, səhiyyədə kadr hazırlığına və həkimlərin təkmilləşdirilməsinə gərgin əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişib. Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsi öyrədib, onlara diqqət və qayğı ilə yanaşıb. Bir həkim, alim və vətəndaş kimi bütün ömrü boyu xalqı üçün çalışıb. Onun bir həkim kimi səhiyyənin inkişafında oynadığı rol, insanların sağlamlığı sahəsində gördüyü işlər və onun haqqındakı digər əbədi xatirələr xalqın yaddaşında daim yaşayır.

Zərifə xanım Əliyeva, eyni zamanda qayğıkeş ana, dahi şəxsiyyətin - ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Ən ağır və təhlükəli vaxtlarda belə Zərifə xanım həyat yoldaşını bir an belə tək qoymayıb, hər zaman ona dayaq olub. Xalqımızın ümummilli lideri Heydər Əliyev Zərifə xanım haqqında demişdir: "O mənə sadəcə ömür-gün yoldaşı deyildi. O mənə dost, dayaq idi. İşimin çətin olduğu bütün dövrlərdə ailəm haqqında çox rahat düşünürdüm. Çünki mənim Zərifə Əliyeva kimi sədaqətli, cəfakeş, fədakar ana olan ömür-gün yoldaşım var idi. Mənim üçün o, birinci növbədə, böyük bir insan idi".

Zərifə xanım Əliyeva qəlblərində daim Azərbaycan sevgisi ilə yaşayan, Vətənimizin qüruru sayılan övladlar yetişdirib. Onun Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycan xalqı üçün tərbiyə etdiyi, böyütdüyü əsl vətənpərvər oğul, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Bu gün bizim yaşadığımız böyük qürur hissi, 2020-ci ildə qazandığımız böyük zəfər məhz vətənpərvər ruhda böyümüş, milli-mənəvi köklərinə bağlı, ailə ənənələrini dərindən mənimsəmiş şəxsiyyətin Azərbaycan xalqı qarşısında xidməti oldu. Bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində dövlətimizin dayaqları möhkəmlənir, Azərbaycan daha da çiçəklənib qüdrətli bir ölkəyə çevrilir.

Bir neçə monoqrafiyanın ("Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası") müəllifi olan tibb elmləri doktoru Zərifə Əliyevanın bir sıra elmi işləri görmə orqanında bədxassəli şişlərin diaqnostikasına və müalicəsinə həsr olunub. "Terapevtik oftalmologiya" kitabının müəlliflərindən biridir. 150-yə yaxın elmi əsərin, 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, 1 ixtira, 12 səmərələşdirici təklifin müəllifi və həmmüəllifi olan professor Zərifə xanım Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə oftalmologiya sahəsində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülüb. Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilib.

Bu gün Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Zərifə xanımın ənənələrini davam etdirir. Yüksək dəyərləri öz şəxsiyyətində birləşdirmiş Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. O, Azərbaycanda təhsilin, səhiyyənin, mədəniyyətin və digər sahələrin inkişafı üçün əlindən gələni edir. Mehriban xanım Azərbaycan qadınını bütün dünyada ləyaqətlə təmsil edir, Azərbaycan ailəsinin yüksək mənəvi dəyərlərə söykəndiyini və ümumbəşəri ideallar əsasında yaşadığını təcəssüm etdirir.

Azərbaycan xalqı Zərifə xanım Əliyevanı dərin hörmət və ehtiramla xatırlayır, onun xalqımız qarşısındakı xidmətlərini unutmur.

**Səbinə SALMANOVA,**
**Milli Məclisin deputatı.**

Respublika .- 2025.- 27 aprel (№84).- S.6.